

**Hörmətli İbrahim müəllim!**

"Neftqazelmitədqiqatlayihə" İnstitutunun kollektivi adından "Azərbaycan neft təsərrüfatı" jurnalının əlamətdar yubileyi münasibətilə Sizi və redaksiyanın kollektivini təbrik edirəm.

120 illik fəaliyyəti dövründə "Azərbaycan neft təsərrüfatı" jurnalı nəinki Azərbaycanda, eləcə də keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda da çox böyük uğurlar qazanmışdır. Jurnal bu gün də neft-qaz sənayesinin aktual problemlərini işıqlandıran, neft elminin müxtəlif istiqamətlərində əldə olunan elmi-texniki yeniliklərin dərc olunması sahəsində uğurlu fəaliyyət göstərən mətbu orqan kimi tanınır və mütəxəssislər tərəfindən maraqla izlənilir.

İnstitutumuz həmişə "Azərbaycan neft təsərrüfatı" jurnalı ilə sıx əlaqədə olmuş və bu gün də əlaqələr davam etməkdədir. Belə ki, kadrlarımızın elmi nailiyyətləri mütəmadi olaraq jurnalın səhifələrində dərc olunur. Gənc alim və mütəxəssislərin, doktorantların elmi işlərinin nəticələrinin dərc olunması üçün jurnalda məxsusi olaraq rubrikanın yaradılması redaksiya tərəfindən göstərilən xüsusi qayğının bariz nümunəsi kimi qeyd oluna bilər.

Biz əminik ki, jurnalın kollektivi öz tarixi ənənələrini davam etdirərək ölkəmizin neft sənayesinin inkişafı, elmi kadrların hazırlanması sahəsində institutla olan əməkdaşlığını daha uğurla həyata keçirmək istiqamətində bundan sonra da yeni-yeni nailiyyətlər əldə edəcəkdir.

"Azərbaycan neft təsərrüfatı" jurnalının kollektivinə Sizin rəhbərliyinizlə yeni-yeni uğurlar, davamlı inkişaf, mətbuat sahəsində uzunömürlülük arzu edirik.

**Hörmətlə,**
**"Neftqazelmitədqiqatlayihə"**
**İnstitutunun direktoru,**
**t.e.d. F.S. İsmayılov**